Səh. 2 Ana obrazının bəzi cizgiləri – Afiq Muxtaroğlu
Səh. 5 Həmayıl nənənin töhfəsi – Esmira Ələkbərli
Səh. 6 Fərqli düşüncə tərzləri – Aytən Fətullayeva
Səh. 6 Biz ağılsız uşaqlarıq – Elvina Hacıyeva
Səh. 3 Əsil dostluq – Hacı Bəkiroğlu
Səh. 4 “MÜƏLLİMLƏR QEYRİ-BƏRABƏR VƏZİYYƏTDƏDİRLƏR” – XALQ MÜDAFİƏÇİSİ TƏHSİL NAZİRLİYİNDƏN NƏ TƏLƏB EDİR
Səh. 7 Gülüşün estetikası – Elizbar Cavelidze



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 YANVAR
2024-CÜ İL
№ 02 (197)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## TÜRKİYƏ İLƏ GÜRCÜSTAN MƏDƏNİ ƏMƏKDAŞLIQ PROQRAMI İMZALAYIB




Türkiyə ilə Gürcüstan arasında 2024-2028-ci illər üçün mədəni əməkdaşlıq proqramı imzalanıb.

Bununla bağlı İstanbulda keçirilən tədbirdə əməkdaşlığa dair sənədi Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy və Gürcüstanın Baş nazirinin müavini, mədəniyyət və idman naziri Tea Tsulukiani imzalayıblar.

Sənədə əsasən, hər iki ölkənin ərazisində osmanlı və gürcü mədəni irsinin qorunması, bərpası ilə bağlı işçi qrupu yaradılacaq, tədbirlər planı hazırlanacaq.

Proqramla bağlı məlumat verən nazir Ersoy bildirib ki, Türkiyənin Artvin və Ərzurum vilayətlərində bir çox əsər qorunub saxlanılır və bu əsərlərin bərpasına 4,5 milyon ABŞ dollarından çox vəsait ayrılıb.

Nazir bu proqramla qarşılıqlı araşdırmaları daha da irəli aparacaqlarını ifadə edərək ümumi mədəni irsi qorumaqla yanaşı, mədəniyyətin bütün sahələrində əlaqələri dərinləşdirmək niyyətində olduqlarını deyib.

## GÜRCÜSTANDA QRİPDƏN 2 NƏFƏR ÖLÜB



Bu mövsümdə Gürcüstanda qripdən 2 nəfər ölüb, lakin COVID xəstələri arasında ölüm faktı olmayıb. Bu sözləri Gürcüstanın İnfeksion Patologiya və QİÇS Mərkəzinin direktoru Tengiz Tsertsvadze söyləyib.

Onun sözlərinə görə, ölüm faktları Qərbi Gürcüstanda qeydə alınıb.

“Son vaxtlar dünyada respirator viruslara yoluxma hallarında artım müşahidə olunur. Gürcüstanda da yoluxma hallarının artması gözlənilən idi. Amma vəziyyət narahatedici deyil və xəstəxanalarda çarpayıların olmaması ilə bağlı həyəcan və emosiyalar lazımsızdır”, – deyə T.Tsertsvadze bildirib.

Qeyd olunub ki, COVID-lə bağlı məhdudiyyətlər qaldırıldıqdan sonra ölkədə infeksiyalar artıb. İndi sabitlikdir, fövqəladə vəziyyət yoxdur. Lakin həddən artıq həyəcan və emosiyalar var.

Mütəxəssis qarşıdakı aylarla bağlı proqnoz da verib. Bildirib ki, fevral-mart aylarında tənəffüs yollarında yoluxucu xəstəliklərin sayı arta bilər. Lakin vəziyyət artsa belə, Gürcüstanda infeksiyaların yayılması nəzarət altındadır.

## BAŞ NAZİR İRAKLİ QARİBAŞVİLİ İSTEFA VERİB



Gürcüstanın Baş naziri İrakli Qaribaşvili istefa verib. Baş nazir bu barədə yanvarın 29-da hökumət administrasiyasında keçirdiyi brifinqdə məlumat verib.

*“İctimaiyyətə komandamızla müzakirə etdiyimiz qərar barəsində məlumat vermək istəyirəm. Bu gün mən Baş nazir vəzifəsini tərk edirəm”,* – deyə İrakli Qaribaşvili bildirib.

O, vəzifəsindən ayrılmasının ona hakim “Gürcü Arzusu” partiyasının siyasi şurası tərəfindən partiya sədri vəzifəsini tutmaq təklifi edilməsi ilə əlaqələndirib. Baş nazir qeyd edib ki, partiyanın qurultayı fevralın 1-də keçiriləcək.

Qaribaşvili əlavə edib ki, partiyanın siyasi şurasının iclası zamanı onun yaya qədər vəzifəsində qalması müzakirə edilib, lakin o, qarşıdan gələn parlament seçkilərini nəzərə alaraq indi bu qərarı verib.

*“Növbəti Baş nazirin öz komandasını vaxtında təqdim etməsi və hökumət formalaşdırması vacibdir. Mən yeni Baş nazirə uğurlar arzu edirəm”,* – Qaribaşvili deyib.

Qaribaşvili komandada digər uğurlu liderlərin də olduğunu, onlara da şans verilməli olduğunu vurğulayıb.

*“Əlavə olaraq biz indi yeni tapşırıqlarla üzləşirik, biz payızda yeni parlamenti seçəcəyik və “Gürcü Arzusu” seçkilərdə inamlı qələbəyə hazırlaşmalıdır ki, biz digər böyük hədəflərimizə nail olmaq istiqamətində irəliləməyə davam edə bilək”,* – deyə Baş nazir bildirib.

Qeyd edək ki, İrakli Qaribaşvili ilk dəfə 2013-cü ildə hakim “Gürcü Arzusu” partiyasının təsisçisi Bidzina İvanişvilini əvəz edərək Baş nazir postunu tutub. 2015-ci ildə vəzifəsindən istefa verən Qaribaşvili 2021-ci il fevralın 22-də ikinci dəfə Gürcüstanın Baş naziri təyin edilib.

İrakli Qaribaşvili ikinci dəfə Baş nazir postuna çox çətin bir periodda gəldiyini, səlahiyyət dövrünün daxili və beynəlxalq siyasi, iqtisadi və sosial böhranlar dövrünə təsadüf etdiyini qeyd edib. Ölkənin maraqlarını qoruduğunu deyən Qaribaşvili 3 illik fəaliyyəti boyunca əldə etdiyi nəticələrdən razı olduğunu vurğulayıb.

# ANA OBRAZININ BƏZİ CİZGİLƏRİ



Şifahi və yazılı ədəbiyyatda analara həsr olunmuş minlərlə nümunə ilə rastlaşmaq imkanımız var. Hələ bunun üzərinə musiqi, rəssamlıq, heykəltaraşlıq nümunələrini də əlavə etsək qarşımızda sanballı mənəvi bir xəzinə yaranar. Deyəsən, mağaradan başlayaraq günümüzəcən bəşər mədəniyyəti kamil bir ana obrazı yaratmaq üçün uğraşmışdır.

Mağara rəssamlığının ana obrazı neolit əkinçilərinin artım, məhsuldarlıq rəmzi olan qadın heykəlciklərində ətə-qana dolmuş, sonrakı dönəmlərin incəsənətində isə az qala ilahi bir varlıq ucalığına yüksəldilmişdir. Qobustan qayaüstü təsvirləri fikrimizi təsdiqləmək baxımından əvəzsiz tutalğacdır. Patriarxallıq ana obrazını müəyyən qədər çərçivəyə salsa da, onun ucalığa yüksələn qanadlarını ütsə də, ana bir obraz kimi öz varlığını incəsənətdə bu və ya digər şəkildə yaşada bilmişdir.

Deməyim odur ki, mədəniyyət tarixi insanın dişisini analıq mərtəbəsinə yüksəltmək ənənəsinə sahibdir, bu mövzu mədəniyyət tarixinin ayrılmaz parçasıdır.

Mən bu yazımda ana obrazına fərqli yöndən baxmaq, fərqli baxış bucağından ayna tutmaq niyyətindəyəm. Və bu fərqli yanaşmamın birmənalı qarşılanmayacağını, dodaq büzənlərin, çiyin çəkənlərin olacağını da bilməmiş deyiləm.

Bir də görürsən ana südünü silaha çevirib, südü ilə övladlarını təhdid edir. Ana haqqı Tanrı haqqıdır demirikmi? Bəzən ana bu haqdan artığını tələb edir. Səni doğmuşam, döşümdən süd vermişəm, gecələr yuxusuz qalıb laylanı çalmışam, südüm burnundan gəlsin, ay nə bilim gözündən gəlsin deyən ana düşünüb dilinə gətirdiklərini övladının başından aşağı yağdırır, onun başının qaxıncına çevirir. Döşünü qoşalüləyə, südünü gülləyə çevirib, övladına tuşlayır. Ağlı üstündə olan övlad bütün bunları səbirlə dinləyir, başını aşağı salıb anasının bu nifrinlərinə sakitcə qulaq kəsilir, anasının sakitləşməsinə, ruhi dincliyə qovuşmasına şərait yaradır. Ağlı bir az o söz olansa anasına: “Sənə minnət edənmi oldu bunları elədin, indi də başıma taqqıldadırsan”, – deyib, baltanı kökündən vurur.

Axı təbiətdə heç bir canlı dünyaya gətirdiyi balasına südünü gələcəkdə baş qaxıncı etmək üçün vermir. Yəni hər bir canlı dişi, elə erkək də körpəsinin qayğısına qalmağa məhkumdur, bu, onun boynunun borcudur. Heç bir inək buzovuna, heç bir qoyun quzusuna mənim dediyimi etməsən, döşümdən əmdiyin süd burnundan gəlsin demir, deməz də. Südünü əmizdirməyən dişi xəstəlik tapar, hətta ölə də bilər. Süd ya əmilməli, ya da sağılmalıdır. Yoxsa xəstəlik öz işini görər.

Doğmaq, nəsil artırmaq nadir istisnalar xaric bütün canlıların dişisinə xas təbii bir xüsusiyyətdir. Burada müqəddəslik-filan axtarmağa gərək də qalmır.

Qadına bütün müqəddəs olanları yükləmişik. Onun haqqının Tanrıdan gəldiyinə, ayağının altının cənnət olduğuna özümüzü inandırmışıq. Qadınlığını analıq kimi dəyərləndirmişik. Bəlkə elə bütün bunlarla biz onun haqqına girmişik? Bəlkə bütün bunlarla biz onu eqoizmə, iddialı olmağa sövq etmişik və bununla da onun gününü göy əskiyə büküb, dincliyini əlindən almışıq? Bəlkə biz onu müqəddəs elan etməklə bundan sui-istifadəyə yönləndirmişik?

Pişik balasını çox istədiyindən yeyir kimi bir deyim məntiqsizlikdir. Pişik balasını istədiyindən yox, həmcinsinin ətinə-qanına yerikləndiyi, kannibal olduğu üçün yeyir. Bu, insanlar, xüsusilə analar üçün də keçərlidir. Ailə psixologiyasında “Devouring mother” – kannibal, sevgisi ilə uşaqlarını yeyib bitirən, şəxsiyyət kimi inkişafının qarşısını alan, ömrünü-gününü çürüdən ana tipindən bəhs edilir. Bu ana tipi övladlarının ətini dişinə çəkməsə də, onların ömürlərini çürütməklə, mənəvi kanniballıqla məşğuldur. Və mən bu “mənəvi kanniballıq” ifadəsini burada verməkdən özümü saxlaya bilmədiyimi də deməliyəm. Amma tibb elmi insanın, elə ananın da, insan əti yediyi faktları toplayıb, hifz edə bilib və bu topladıqlarını bu gün də yeni faktlarla zənginləşdirməkdədir.

Kanniballığın bu növündən danışmaq kimi bir fikrim olmadığından növbəti abzasa keçirəm.

İndi mən desəm ki, ana var öz dəli övladına yiyə çıxır, onun adam cərgəsinə çıxması üçün özünü oda-közə vurur, ana da var mənəvi kanniballığıyla, onun hər hərəkətinə “noğda” qoymaqla ağıllı oğlunu dəli edib, çöllərə salır. Siz mənim bu fikrimi topa-tüfəngəmi tutacaqsınız? İnanmıram ki, belə edəsiniz. O üzdən ki, ətrafımız bu iki tip analarla doludur. Və bizim söhbətimizin mövzusunun ikincilərlə bağlı olduğu da bəllidir.

Biz bu kannibal ana tipindən xilas ola bilərikmi və ya bundan xilas varmı? Bu sualın ətrafında nə qədər var-gəl etsək də, ona doğru-dürüst bir cavab verəcəyimizə əmin deyiləm. O üzdən də bu suala cavab verməmək daha məqsədəuyğundur. Sual cavabsız qaldığından çözmək istədiyimiz müşkül də müşkül olaraq qalacaq. Sizif daşı kimi onu təkrar-təkrar zirvəyə qaldırmalı olacağıq. Dünən, bu gün cavabı tapılmayan bu suala gələcəyin homo texnikusunun cavab verəcəyi ümidiylə yazıya üç nöqtə qoymağın məqamıdır.

**Afiq MUXTAROĞLU**

# CƏNUBİ QAFQAZDAKI MÖVCUD MÜNAQİŞƏLƏRİN REGİONA İQTİSADİ TƏSİRLƏRİ



Avropa və Şərq mədəniyyətinin bir-biriylə kəsişən nöqtəsində yerləşən Qafqaz regionu XV əsrdən bəri bir çox münaqişələrin qaynar nöqtəsi olmuşdur. Bu münaqişələrin yaranmasına bir çox səbəblər göstərilir. Bəs baş vermiş qarşıdurmalarda region ölkələrinin və xalqlarının illərdir ağır itkilərə məruz qalması iqtisadi müstəvidə öz əksini necə göstərir? Bu suala dəqiq rəqəmlərlə cavab verə bilərik.

İstənilən şəxs evində oturaraq kiçik bir araşdırma etsə anlaya bilər ki, bu müharibələrdə həlak olan insanlarla birlikdə geridə qalan dağıntılar ölkəni illərlə geriyə salır.

Son 30 il ərzində region ölkələrindən Gürcüstanda yaşanan münaqişələrdə ümumilikdə ölkəyə dəyən ziyan 30 milyard ABŞ dolları, Cənubi Qafqazın digər ölkələri olan Azərbaycan-Ermənistan münaqişəsində bu ölkərə dəyən ziyan isə təxmini olaraq 65 milyard dollara yaxın olduğu güman edilir. Yəqin düşünürsünüz ki, bu müharibələrin olmadığı bir keçmişdə indiki vəziyyət, yaşayış və rifah səviyyəsi daha da yaxşı ola bilərdi. Ancaq bu tam olaraq belə deyil.

Gəlin indi isə Qafqazın coğrafi mövqeyi haqqında danışaq. Qafqaz özünün adından da bəlli olduğu kimi dağlıq regiondur. Qafqaz sıra dağları başlanğıc və son nöqtələrində yerləşən dəhliz yollarını hesaba almasaq hər zaman aşılması çətin olan böyük təbii bir sərhəd xəttidir.

Bu sərhəddin hüdudlarında tarix boyu onlarla mədəniyyət yaranmış və bu da öz növbəsində kiçik regionun çoxlu sayda etnik və mədəni rəngarəngliyin yaranmasına gətirib çıxarmışdır. Bu çox əhəmiyyətli hadisədir. Ancaq bu region üçün çoxsaylı, fərqli dillərdə danışan, bir-birini anlamaqda çətinlik çəkən xalqların yaşaması münaqişələri qaçılmaz edir. Üstəlik tarix boyu xarici işğallara məruz qalan region bir neçə dəfə etnik dəyişikliklərə məruz qalmışdır. Hələ 1817-1864-cü illərdə baş vermiş Qafqaz müharibələrində ruslar bu kiçik ərazidə bir-birindən fərqli onlarla xalqın yaşadığını qeyd edirdilər.

Müqayisə üçün götürsək, ötən 10 illiklər ərzində, xüsusilə də 1991-ci ildən indiyə qədər baş verən müharibələr region xalqlarını sülh üçün bir araya gətirməyə heç olmadığı qədər daha yaxındır. Çünki müasir dünya üzərində də yeni bir qloballaşma və kosmopolitik düşüncələrin formalaşması az da olsa regiona da təsirini göstərir. Buna misal olaraq, münaqişə ölkələrinin rəsmilərinin beynəlxalq və ya regional rifah üçün etdikləri çıxış və qlobal iqlim, təhsil, ticarət əlaqələri üzərində qurulan razılaşmaları göstərmək olar. Eləcə də region xalqlarının, xüsusilə, əhalinin gənc təbəqəsinin müasir dünyada iqtisadi qazanc əldə etmək üçün regionda sabitliyin önəmini ciddi şəkildə dəstəkləməsi xalqları sülh üçün əməkdaşlığa sövq edir.

Münaqişələrin və regiondakı iqtisadi çətinliklərin bir digər səbəbi də XX əsrin əvvəlində regionda zəngin neft və qaz kimi təbii ehtiyatların kəşfi, regionun şərq və qərb dünyasını birləşdirən bir qovşaqda yerləşməsi, yerli xalqların dünyada artan azadlıq hərəkatları fonunda ayrı-ayrılıqda dövlət qurmaq istəkləridir. Bütün bunlardan sonra Qafqaz da başqa bir ağır çəkili region olmaq yolunda irəliləyir. Bu isə özözlüyündə yerli xalqların, eləcə də kənar qüvvələrin regiona marağını artırdı.

**Səlahəddin PİRİYEV**
*İqtisadçı*

## MÜSTƏQİL DÜNYANIN KÖLƏ VƏTƏNDAŞLARI
### (Müstəqil köləlik və ya müstəqil dünyanın kölə ruhları)

Kainat var olduğundan bu yana müəyyən kütlələr tərəfindən insanlar təbəqələrə ayrılır. Maddiyyat ilə üstünlük əldə edənlər insanları təbəqələrə ayırıb elə dəyər verdilər. Dünyamız müasirləşdi, insan haqları meydana gəldi, hər bir insanın azadlıq hüququnun olduğu dilə gətirildi, nəşr edildi. Bununla da dünyada insan azadlığı deyə bir fikir formalaşdırılmağa çalışıldı. Bəli, insanlar azad, hürr iradələri ilə yaşamalıdırlar. Lakin azadlıq sözlərə, cümlələrə sığışdırılmış fikirlər olaraq qalmamalıdır. Bu fikirlərə yansıyan düşüncə həyat tərzinə çevrilməlidir.

Əsrlər öncə kölələik var idi, insanlar bədən olaraq kölə olsalar da ruhları azad olurdu. Ruhları hürr iradənin seçim etdiyi, lakin bu seçimlərini yaşaya bilmədikləri həyatın arzusunda idilər. İradənin seçimini xəyalda da olsa yaşamağa çalışır, o seçimin gerçəkləşməsi üçün fürsət qovalayırdılar, əllərinə keçən ilk fürsətdə kölələikdən azad olduqlarında, azad olma imkanı olduğunda ruhun seçimi arxasınca gedir və o həyatı yaşayırdılar. İnsanoğlunu hərəkətə keçirən ruhdur. Bədən ruha geyindirilmiş libas rolunu oynamaqdadır. İnsan ruh ilə var olmaqdadır.

Bu gün isə tam əksi baş verməkdədir. Müasir dünyanın azad insanları kimi yaşayırıq kimi görünsə də, elə deyil. Müasir dünyanın ruhları kölə olan vətəndaşları olaraq yaşamaqdayıq. Bədənlərimiz azad, bədənlərimiz müstəqildir. Zəncirlərə vurulmamışıq, ixtiyar öz əlimizdədir kimi görünür, lakin ruhumuz qəfəsdədir, ruhumuz kölədir. Yuxarıda da vurğuladığım kimi, insanı hərəkətə keçirən ruhdur, ruh kölə olduğunda bədən tək başına neyləsin? Hansı sağlam qərarı verə bilər? Hansı seçimi edib arxasınca düşə bilər? Yalnız birilərinin seçdiyi həyatı, seçdiyi güzərgahı izləyər, o yolda davam edər və azad yaşadığını zənn edərək ömrü başa vurar. Və bununla da o kimsə üçün pərdə qapanar. Günümüzün ən aktual problemlərindən, bəlkə də təcili surətdə həll edilməsi lazım olan problemlərdən biri məhz budur.

Kölələikdə olub-olmadığımızı idrak edə bilməyimiz üçün ətrafdan kənar göz kimi verdiyimiz qərarları, yaşadığımız həyatı seyr etməliyik. Seyr etməliyik ki, baxaq görək etdiyimiz seçimlər, verdiyimiz qərarlar bizim düşüncəmizin məhsuludur, ya yox... Bax o zaman nəyin nə olduğunu anlaya bilərik. O zaman həqiqət səhnəsi ilə qarşı qarşıya qala bilərik. O zaman dəyişikliklər etmək imkanı əldə edə bilərik.

Əziz və dəyərli oxucular, hər birinizi eyvana dəvət edirəm, seçimlərinizi analiz etməyə, sorğulamağa dəvət edirəm. Analizin nəticəsinə yansıyan görüntülərlə üzləşməyə dəvət edirəm sizləri. Aktual problemin həlli oradadır ancaq. Bunu hər şəxs özü üçün etməzsə, başqa birinin bunu etməsi imkansızdır.

İnsanlıqla bərabər kölələik də davam edir, yuxarıda aydınlıq gətirdiyimiz məsələdə keçmiş və indiki dövr kölələiyini müqayisə etdiyimizdə indiki dövrün kölələiyi daha dəhşətlidir, daha ürpərdicidir. Çünki indiki kölələik idarəçilik düyməsini əlinə alıb.

Sizləri inandırım ki, hələ də gec deyil, ürpərdiyimiz bu səhnəni sahmana salaraq aydın bir gələcək inşa edə bilərik, ancaq bunun üçün analizin nəticələri mütləqdir.

**Lamiyə HACIYEVA**

*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şurasının sədri*

## ƏSL DOSTLUQ



**Hacı BƏKİROĞLU**

hacihaciyev@hotmail.com

*"Biz ona iki yolu (xeyir və şər, küfr və iman yollarını) göstərmədikmi?!"*
*(Bələd surəsi, 10-cu ayə)*

Hər insan yaxın dost axtarır. Xoşbəxt günlərini paylaşan, çətin anlarında özünə dəstək olan, çarəsiz qaldığı mövzuların həlli yollarını göstərən, özünü qeydsiz-şərtsiz sevən, sədaqət göstərən, qoruyub saxlayan, səhvlərinə şəfqətlə yanaşan, sağlığında olduğu qədər xəstə olanda da yanında olan insan axtarır. Ancaq insanın belə bir dost tapa bilməsi üçün qarşısında iki fərqli yol vardır. Bunların biri Allah rizasını güdən möminlərin seçdiyi Quran əxlaqının tələb etdiyi yoldur, digəri isə dünya mənfəətini qarşısına məqsəd qoyan və maddiyata söykənən dostluqların yoludur.

Əsl dost ola bilmək üçün bir insanı "yalnız gözəl əxlaqı üçün sevmək" lazımdır. Bunlar bir adamın "Allah qorxusu və sevgisi, imanı, səmimiyyəti və təqvası"dır. Qurani-Kərimdə Allah (c.c.) buyurur ki, "Allah sizin düşmənlərinizi çox yaxşı bilir. Gerçək bir dost olaraq Allah yetər. Və köməkçi olaraq da Allah yetər". Ancaq bu dəyərlər üzərində qurulan dostluqlar əbədidir. Belə yüksək bir əxlaqa sahib olan kəslərin dostluğu sarsılmaz bir xüsusiyyət qazanar.

Şübhəsiz, hər insanın ehtiyacını hiss edib axtardığı əsl dostluq çox böyük bir nemətdir. Əsl dost insanın yaxşı günündə də, pis günündə də yanında olan, özü üçün nə istəyirsə dostları üçün də tərəddüdsüz eynisini istəyən, onun xoşbəxt olmasını ən azı özü qədər arzu edən insandır; qısqanclıq, rəqabət kimi düşüncələrə qapılmadan qarşısındakı insanı səmimiyyətlə sevən və onun hər vaxt yaxşılığını istəyən insandır. Quran əxlaqından qaynaqlanan belə möhkəm dostluğu başqa heç bir şəkildə əldə etmək mümkün deyildir.

Əsl dost olmağın şərti o adamın dünyada və axirətdə xoşbəxt olmasını hədəfləməkdir. Lazım olduğunda dürüst və açıq danışıb, lazım gəldikdə ona imanı istiqamətdən əskik olan istiqamətlərini izah etmək, şəfqətlə bunları düzəltməsinin yollarını göstərmək də əhəmiyyətli bir dostluq xüsusiyyətidir. Bu cür bir davranışı ancaq həqiqətən sevən və həqiqətən dost olan bir insan edər. Quran əxlaqının yaşandığı bir mühitdə Allah qorxusu və iman, insanların bir-birlərinə əsl mənada sevgi və hörmət etmələrini təmin edəcək dəyərlərdir. İman edənlərin bir-birlərinə qarşı hiss etdiyi sevgi, güvən və sədaqət tamamilə onların Allah yolunda göstərdikləri səyə görə əsaslanmaqdadır. Allahın razılığını qazana bilmək üçün sahib olduğu hər şeyini xeyiri üçün istifadə edən, bu yolda düzgün bir istiqamət tutan bir mömin digər müsəlman qardaşlarının sevgisini qazanacaq və onlara ən gözəl şəkildə nümunə olacaq. Aralarındakı güclü sədaqətləri, bir-birlərinə qarşı olan sevgi, bağlılıq və inamlarının da artmasına səbəb olacaqdır. Bu səbəbdən dostluq və yaxınlıq insanların Allah qorxuları, imanları və gözəl əxlaqları üzərində qurulmuşsa, xəstəlik, ya da yaşlılıq səbəbi ilə yaranan fiziki dəyişikliklər bu dostluğa qəti şəkildə təsir edə bilməz. Əksinə, bu vəziyyətdəki bir mömin daha çox şəfqət və mərhəmət duyular. "Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar (Allaha) boyun əyərək namaz qılır və zəkat verirlər" (Maidə surəsi, 55-ci ayə).

Quran əxlaqını özlərinə rəhbər etməyən insanlar, bütün istəklərinə baxmayaraq, əsl bir dostu əsla tapa bilməzlər. Bu səbəblə bir çox insanın bu mövzuda "çox təkəm", "heç bir dostum yoxdur", "hamısı çətin günümdə məni tək buraxdılar, hamısı da yaxşı gün dostuymuş" kimi sözlərə tez-tez rast gəlinir...

Bəzi insanların zənginlik, gözəllik, etibar, mövqe, ya da ictimai status kimi dəyərlərə görə qurduqları dostluqlar heç bir zaman davamlı olmaz. Çünki dostluğun söykəndiyi bu dəyərlərdə bir dəyişiklik olduğu anda, dostluq da bitər. Məsələn, bu əxlaqa sahib bir insan, çox gözəl və dəbdəbəli olduğu üçün, dost olduğu bir adamın, bir anda bir qəza nəticəsində tanınmayacaq qədər qüsurlu və eyni zamanda da baxıma möhtac, aciz bir vəziyyətə gəlməsiylə birlikdə bu adamla olan bütün əlaqəsini, yaxınlığını itirə bilər.

Rəqabət gözü ilə baxan, həsəd edən insanlar çox vaxt yalnız məcbur qaldıqlarında başqalarına səhvlərini söyləyərlər. Çünki, ümumiyyətlə, başqalarının özlərindən yaxşı olmasını istəməz və ya dostluqlarının pozulacağını düşünərək səhv istiqamətlərini görsələr belə "çox yaxşısan", "biz səni belə, olduğun kimi sevirik" kimi sözlər söyləyərək çox vaxt qeyri-səmimi davranarlar. Mənfəətlərinə görə yaşayan insanlar özləri də həyatları müddətində bəzi maddi, mənəvi eniş və çıxışlar yaşayarlar. Gözəlliklərini, gəncliklərini, sağlamlıqlarını, sahib olduqları malları, zənginliklərini itirə bilərlər. Əvvəlində əsl dost zənn etdikləri insanların yaşlaşdığı, əldən düşmüş halda olduqlarında onlara dəyər vermədiklərini görərlər. Yaxşı günlərində canla-başla, çox yaxın davranan, bir-birlərinə ölənə kimi sədaqət sözü verən bu insanlar bir-birləriylə danışmayacaq və hətta bir-birlərini tanımazlıqdan gələcək qədər uzaq bir rəftara yol verərlər. Bir problemləri olduğunda bunu paylaşacaqları, məsləhətləşəcəkləri, kömək istəyəcəkləri, güvənə biləcəkləri insanların olmadığını görərlər. "Ən yaxınım" dedikləri insanların belə mənfəətlərini dostluqdan üstün tutduqlarını anlayarlar.

Quran əxlaqına görə yaşamayan insanların bir-birlərinin pis, əxlaqsız xüsusiyyətlərini bilərək əsl mənada sevgi, hörmət edə bilmələri, güvənə bilmələri qeyri-mümkündür. Bir adamın yalan danışdığını, ikiüzlü və süni bir rəftar etdiyini bilib, mənfəətləri üçün başqalarını istifadə etdiyini görüb ona içdən bir sevgi və hörmət etmək mümkün deyil. İnsan hər nə qədər dostum, yaxınım desə də bu adamın başqalarına olduğu kimi, özünə qarşı da eyni yanaşacağını bilər.

"Həmin gün zalım kimsə barmaqlarını dişləyərək deyəcəkdir: "Kaş ki, mən Peyğəmbərin yolunu tutub gedəydim! Vay halıma! Kaş ki, filankəslə dost olmayaydım! Çünki Zikr (Quran) mənə çatdıqdan sonra o, məni ondan uzaqlaşdırdı". Həqiqətən, şeytan insanı tənha qoyub qaçandır" (Furqan surəsi, 27-29-cu ayələr).

## "MÜƏLLİMLƏR QEYRİ-BƏRABƏR VƏZİYYƏTDƏDİRLƏR" – XALQ MÜDAFİƏÇİSİ TƏHSİL NAZİRLİYİNDƏN NƏ TƏLƏB EDİR



Gürcüstanın Xalq Müdafiəçisi Təhsil, Elm və Gənclər Nazirliyindən qeyri-gürcüdilli məktəb və sektorların müəllimlərinə təcrübəçi müəllim statusunu dəyişdirmək üçün şəraitin yaradılmasını və yüzlərlə müəllimə qarşı ayrı-seçkliyin aradan qaldırılmasını tələb edir.

Yanvarın 22-də Xalq Müdafiəçisi tərəfindən yayımlanmış Giorgi Amilaxvarinin qurumuna göndərilmiş təklifdə qeyd olunduğuna görə, təhsil sistemində aparılan islahatlar etnik azlıqlar qarşısında duran problemlərə kifayət qədər cavab vermir. Bunun nəticəsində də qeyri-gürcüdilli məktəb və sektorlar yenidən bir sıra problem və davamlı çatışmazlıqlar qarşısında qalırlar.

"Təcrübəçi müəllimlər tərəfindən "müəllimin peşə və karyera inkişafı sxemi" çərçivəsində baş, aparıcı və mentor müəllim statusunu qazanmaq çətinliyi aktual olaraq müəyyən olunur. Bu kompleks xarakter daşıyır və bir çox səbəblərlə əlaqədardır: dövlət dilini aşağı səviyyədə bilmək, yaşlı nəsil tərəfindən dilin öyrənilməsinin çətinliyi və onların fərdi ehtiyaclarına uyğun metodların, həvəsləndirici aktivliklərin çatışmazlığı, yaşlı nəslin nümayəndələrində gürcü dilini öyrənmək motivasiyasının az olması, dövlət dilini öyrədən proqramların yetərsiz coğrafi arealı və s.

Bundan əlavə, diqqətə çatdırılmalıdır ki, qeyri-gürcüdilli məktəb və sektorların müəllimlərinin peşə kompetensiyalarını təsdiqləmək və karyerada inkişaf şəraiti gec yaradılıb. Bu, onları gürcüdilli məktəb müəllimləri ilə müqayisədə qeyri-bərabər şəraitə salıb", – deyə Xalq Müdafiəçisi Təhsil, Elm və Gənclər Nazirliyinə müraciət edib.

Xalq Müdafiəçisi Aparatının məlumatına görə, Ombudsman qeyri-gürcüdilli məktəb və sektorların müəllimlərinin karyerada inkişafı istiqamətində aydınlaşan problemlərin qarşısının alınması və ayrı-sekçliyin aradan qaldırılması məqsədi ilə ümumi təkliflə Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyinə 2024-cü ilin 17 yanvarında müraciət edib.

Məktubdan aydın olur ki, Xalq Müdafiəçisi Aparatına qeyri-gürcüdilli məktəb və sektorların 461 müəllimi müraciət edib. Onlar qeyd ediblər ki, təhsil sistemində aparılan islahatlar etnik azlıqlar qarşısında duran bir sıra davamlı probemlərə cavab vermir. Xüsusilə də təcrübəçi müəllimlərin baş, aparıcı və mentor müəllim statusu qazanması çətinliyi aktualdır. Bu onların təcrübəçi müəllim kateqoriyasından çıxarılmasına və müəllim statusunun əllərindən alınmasına səbəb olacaq.

Xalq Müdafiəçisi hesab edir ki, etnik azlıqların təhsil siyasətinin vahidliyi və ardıcıllığı məqsədi ilə dövlətin bu istiqamətdə mərhələli hərəkət etməsi mütləqdir.

Ümumi təklifdə Xalq Müdafiəçisi Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyini aşağıdakılara çağırır:

• Spesifik ehtiyacların müəyyən edilməsi məqsədi ilə və onlara cavab olaraq peşə inkişafı sxemi müzakirə olunsun və müvafiq qurumlarla əməkdaşlıqla vaxtında, effektiv olaraq qeyri-gürcüdilli məktəb və sektorların müəllimləri üçün statuslarını dəyişmək şəraitini təmin edəcək aktivliklər planlaşdırılsın.

• Dövət dilinin tədrisi proqramının populyarlaşdırılması məqsədi ilə etnik azlıqların sıx məskunlaşdığı bütün ərazi vahidlərində proqramın həyata keçirilmə coğrafi arealını genişləndirsin və etnik azlıq nümayəndəsi olan yaşlı nəslin ehtiyaclarına uyğun təhsil komponentləri tətbiq etsin.

## VAKANSİYALARIN SAYI MƏKTƏBLƏRİ TƏRK EDƏN MÜƏLLİMLƏRİN SAYINDAN AZDIR – NİYƏ?

Gənc müəllimlərin sistemə daxil olması məhdudlaşdırılıb. Bu barədə Milli Təhsil Araşdırmaları Mərkəzi tərəfindən Müəllimin Peşə İnkişafı və Karyerada İrəliləmə Sxeminin qiymətləndirilməsi sənədində oxuyuruq.

Araşdırmada qeyd olunub ki, direktorlar təcrübəli kadrlara üstünlük verirlər, mövcud reallığa görə məktəbdə işləyən 30 yaşa qədər pedaqoqların sayı yalnız 4 %-dir. Buna baxmayaraq ki, 2 il ərzində ümumtəhsil müəssisəsini 8 mindən artıq müəllim tərk edib, sistemdə yalnız 3672 yeni kadr işlə təmin olunubdur.

Daha ətraflı sənəddə oxuyuruq: 30 yaşa qədər müəllimlər 4 % təşkil edir. OECD-nin üzv ölkələrində 30 yaşa qədər müəllimlər ibtidai pillədə 13 %, baza və orta pillədə 9 %-dir. Gürcüstanda son 7 il ərzində sistemə yalnız 2000-ə yaxın gənc müəllim daxil olub. Onlardan 1774-dü sxemə qoşulmuş müəllimlərdir, 217-si isə "axtaran" statusu ilə məktəbə daxil olub.

Müəllimin əmək bazarının dolğunluğuna reaksiya göstərmək baxımından bizim respondentlər Müəllimin Peşə İnkişafı üzrə Mərkəz tərəfindən 2019-2021-ci illərdə həyata keçirilmiş müəllim mükafatı proqramını qeyd ediblər. Bu proqram çərçivəsində iki il ərzində 8292 müəllim sistemi tərk edib. Bizim respondentlərin müşahidəsinə görə, proqram sayəsində çox sayda gənc müəllim sistemə daxil ola bilib.

Qeyd edək ki, həmin dövrdə sistemə daxil olmuş 3672 müəllimdən (yəni ilk dəfə dərs keçmiş müəllim) yalnız 1602 nəfəri gənc (30 yaş və yuxarı) olub. Məktəblərdə gənc müəllimlərin sayı 2019-cu ildən dramatik şəkildə artıb.

Daha bir qeyd edilməli fakt budur ki, bu iki il ərzində 8292 müəllim tərəfindən sistemin tərk edilməsi şəraitində ümumilikdə məktəbdə 3672-dən az vakansiya yaranıb. Belə reaksiyanın iki mümkün izahı var:

1. Məktəblər müəllimləri əvəz etməyə ehtiyac duymurlar. Çünki başqa, natamam qrafikdə işləyən müəllimərə saatları bölürlər. Bu ehtimalı bizim təhsil və tədrisin beynəlxalq araşdırmasından yuxarıda qeyd etdiyimiz indikator yaradır: 2018-ci ildə müəllimlərin, demək olar, yarısı natamam qrafikdə işləyirdi və bu onların böyük əksəriyyəti üçün saat çatışmazlığından yaranıb.

2. Məktəb başqa məktəbin müəllimini işlə təmin edib. Bir müəllimin müxtəlif məktəblərdə işləməsi geniş yayılıb. Gürcüstanda 6036 müəllim (11 %) 2 məktəbdə, 579 müəllim 3 və daha çox məktəbdə dərs keçir.

Məktəb ictimaiyyətində gənc müəllimlərin qəbulu ilə əlaqədar qeyri-bərabər yanaşmalarla qarşılaşırıq. Bəzisi üçün gənc müəllimi qəbul etmək birmənalı müsbət qəbul olunur. Amma məsələ vakant yerə namizəd seçməklə bağlıdırsa, direktorların bir hissəsi təcrübəli müəllimlərə üstünlük verirlər.

---

*Səhifədəki məlumatlar "edu.aris.ge" və "etaloni.ge" saytlarından götürülüb*

Gürcü dilindən tərcümə etdi: **Aynurə Əliyeva**

# HƏMAYIL NƏNƏNİN TÖHFƏSİ



Sizə bir nağıl danışmaq istədim, elə nağıl ki, o nağılın sonunda göydən düşən almalar üç dənə olmayacaq. O almalar hər bir borçalılı üçün töhfə olacaq. Elə nağıl ki, o nağılın xəyalı hamımızın gözü önündə canlanacaq, bir film kimi nağıl, buna əminəm...

Qədim Gürcüstanın bir kəndində – Mtsxetanın Ksani kəndində sovetlər dönəminin qaydalarına uyğun olaraq işləri ilə əlaqədar bu kənddə məskunlaşan ailələrdən biri də Novruzəli kişinin ailəsi idi. Əlbəttə, əslən Barmaqsızdan (Tsalkadan), Hacılar kəndindən idilər. Öz işlərində vicdanlı və namuslu olan ailə yaşadıqları mühitə uyğun olaraq övladlarına da bu kənddə ilk təhsil verdilər. Gəncliklərindən burada yaşayan ailələr artıq özləri üçün şərait qurub uyğunlaşmışdılar.

Gürcülərlə elə doğmalaşmışdılar ki, az qala Tsalkadakı doğmalar da yaddan çıxmışdı. Beləcə günlər sürətlə gedərkən artıq dağılmış imperiya töküntükərinin yaratdığı problemlər illərdir dost şəraitdə yaşayan ailələri bir-birindən uzaqlaşdırmağı bacardı. Məlum Qamsaxurdiya qaragüruhçuluğu Ksani kəndindəki ailələrdən də yan keçmədi. Ailə süni yaradılan milli ayrı-seçkiliyə dözməyərək kənddən köçməli oldu. Bakı həmin vaxtlar Ermənistan və Qarabağdan olan qaçqın və məcburi köçkünlərlə bağlı problemlər yaşayırdı. Borçalı soydaşlarımızın kompakt yaşadığı ərazidir. Mtsxeta isə fərqli mühit idi. O mühitin insanları üçün Bakı qəriblik idi. Heç cür uyğunlaşa bilmirdilər. Baxmayaraq ki, artıq məskunlaşmışdılar. Hər cür sosial, maddi şərait vardı, hətta gürcü bölməsinin şagirdləri olan nəvələr də, çətinliklə də olsa, Azərbaycandilli məktəbdə yerləşdirilmişdi. Həmayıl nənə və övladları üçün qəriblik idi hər şey, hara baxırdı öz kəndini, öz evini görürdü, amma məlum zaman idi.

Bax beləcə zaman axarını tapdı, ailənin nəvələrə ana xətti ilə musiqi bağlılığı vardı, bu, özünü balaca Nargilədə çoxdan tapmışdı. Hələ uşaqlıqdan evin süpürgəsini saz kimi bağrına basıb oxuyardı. Ana babası Oruc kişi Qarabağlar kəndindən zurnaçı kimi toylara gedərdi, saz havalarını da çala bilirdi, Aşıq Ələsgəri əzbər bilirdi, dayısı gözəl muğam oxuyardı, hətta anasının da gözəl səsi vardı. Bir gün baba ona balaca bir saz aldı. Hamının ötəri hiss kimi qəbul etdiyi saz sevgisi artıq dərinləşirdi. Nargilə az vaxtda Bakıda ana dilini, ədəbiyyatını, tarixini, mədəniyyətini çox gözəl öyrənmişdi. Bu bağlılıq saza meyilliklə öz möhürünə doğru çəkirdi. Danəndə Həmayıl nənə – “bu qızı oxutmaq lazımdır, olanda aşığın da savadlısı, diplomlusu olmaq lazımdır”, – dedi.

Gənc Nargilə Bakıda təhsil üçün müraciət etdi. Onu dinləyib, gəl tar şöbəsində oxu, öyrən dedilər, tar mürəkkəbdir, sazı asan öyrənəcən dedilər. Onda konservatoriyada saz fakültəsi yox idi. İlqar İmamverdiyev ilk dəfə saz musiqilərini nota köçürən şəxs idi. Nargilə sazı elmi sənətin əvəzsiz saz musiqisi alimindən öyrəndi. İlqar müəllim Nargilənin həyatında çox önəmli yolu valideynlərinə göstərdi. Bu çox istedadlı qızdır, parlaq gələcəyi var, qoyun davam etsin dedi. Beləcə özünə süpürgədən saz düzəldən, utana-utana bilmədiklərini acgözlüklə öyrənən, “kimsən” sualına böyük hərflərlə “mən türk köklü Nargiləyəm” deyən bir fenomen yetişdi. Hətta konservatoriya məzunu oldu. Əlbəttə, olmalıydı. Bu həmin Borçalı Səkinəsi idi ki, Şah İsmayıl sarayında saz sevgisi aşılamışdı, bu həmin aşıq Sona Hamamlı idi ki, sevgisini saza qurban vermişdi...

Yerə-göyə sığmayan Həmayıl nənə artıq sakitləşən tufanlardan sonra yeni xəyallar qururdu. H.Əliyevin yaratdığı dostluq körpüsü ona ümidlər verirdi. Bu ümidin körpüsüylə geri – kəndinə döndü. Onu sevinclə qarşılayan illərin dostu, doğması həmyerliləri ilə görüşdü. Mütləq dönəcəm dedi və etdi. Bu dəfə o məcburi köçkün olduğu Ksani kəndinə yox, Muxran çökəyində yerləşən öz doğma kəndinə – Kaspinin Xidisquri kəndinə qayıtdı və qardaşlarının köməyi ilə orada yenidən ev tikdi, ocaq qurdu. Məzun olan nəvəsi Nargiləni də götürüb qayıtdı ki, oğlu, gəlini də məcbur gələcək. O, səhv etməmişdi. Həmayıl nənə ailəsini qaytarmağı bacardı.

XXI əsr isə öz Nargiləsi ilə Borçalı aşıq məktəbində Nargilə möhürünü yaratdı. Bu gün onlarla şəyirdini davamçı yetişdirir. Öz övladlarını mükəmməl yetişsinlər deyə ana dilində təhsil verdi. Özünü təqdim etmək üçün özün olmalısan ki, sənə hörmət etsinlər deyir. Övladları Tbilisi 73 saylı Azərbaycandilli məktəbdən məzun oldular, hazırda Cavaxişvili adına universitetdə incəsənət sahəsi üzrə tələbədirlər. Oğlu Novruz isə saz sevgisini ana sevgisiylə eyniləşdirib artıq.

Nargilə xanım danışdıqca sanki çaparaq at ahəngini hiss edirəm. Danışığı belə saz ritmiylə ahənglənir. O qədər təmiz, məlahətli danışır ki, sazı Nargiləyə yaraşdırıram, Nargiləni də saza, bir-biri üçün yaranmışlara...

Nargilə xanımın uzun illərdir Gürcüstanda mədəniyyətimiz üçün etdiklərini qəti sadalamayacam. Tbilisidə Azərbaycan Mədəniyyəti Mərkəzində saz dərnəyində davamçılar yetişdirməyi bir başqa töhfə, həmçinin rəsm və dizayner qabiliyyətli bu sazəndə xanım öz geyimlərini də özü dizayn edir və milli üslublara söykənir. Bu arada, mən çox istərdim Nargilə xanım bütün tədbirlərdə, el şənliklərində milli geyimdə çıxaydı – Nargilə imici, Nargilə dəyəri ilə...

Uzun illərdir bütün layihələrdə dövlətlə bərabər öz kimliyini təqdim edən Nargilə xanım Çində dostluq festifalında dastan danışmağından ən kiçik tədbirlərə belə qatılmağa etiraz etmir bu sadə insan! Son uğurunu isə xüsusi qeyd etməyə bilmərəm. Bununla o, Nargilə möhürünü, türk əsilli, Azərbaycan sənətli Gürcüstan vətəndaşıyam deyərək sənət təqdim etdi.

Avropa pəncərəsindən baxanda kiçik görünən Gürcüstan illərdir tamaşaçı olduğu Avropa-Gürcüstan folklor festivalına artıq ev sahibi olmağı bacardı. “Evropaliya-Gürcüstan” festifalında iştirakçıları avropalı münsiflər özləri seçmişdilər. Maraqlıdır ki, ən çətin saz havalarını: "Məmmədbağırı", "Göyçəgülü", "Mansırı", "Fəxri", "Dastani", "Müxəmməs", "Ruhani"ni ifa etməyi istədilər. Bunlar avropalı münsiflərin seçdiyi ən çətin saz havaları idi. Dörd ay ərzində – oktyabrdan (2023) fevrala (2024) qədər Avropa Gürcüstan folklorunu tanımaq imkanı əldə edəcəkdi. Bu seçimdə aşıq Nargilə də vardı. Siyahını təqdim edəndə mədəniyyət naziri üçün razılıq qərarı heç də asan olmadı. Tolerant ölkə kimi türk əsilli aşıq və Azərbaycan sənəti Gürcüstan folklorunda. Bax elə beləcə Nargilə öz bukletində kimliyini təqdim etdi. Özüməm, amma Gürcüstan vətəndaşıyam deyərək. Bu vaxt ərzində iki dəfə Nargilə solo konsert verdi. Seçilmiş musiqilər də ən çətin aşıq havaları idi. İki dəfə 300 adamlıq zalda 1 saat konser verdi – oktyabrda və yanvarda. Dolu zalın dinləyici ruhu, duyumu alqışlarda özünü göstərirdi. Konsert sonu səbəbkarı üç Azərbaycan vətəndaşı olan xanım yaxınlaşıb qucaqladılar: “Biz Azərbaycan sevgimizi bölüşmək üçün Gürcüstan adına tamaşaya gəldik. Sazımızın sehri bizi soyuq havada elə isitdi ki, göz yaşımızı saxlaya bilmədik”. Avropalı alqışçılar arasında Gürcüstan mədəniyyət naziri və Brüsseldəki Gürcüstan səfirimizin və Gürcüstanı izləməyə gələn Azərbaycan vətəndaşlarının yeri başqa idi, çünki bu tamaşaçılar Nargilənin həqiqi və mənəvi vətəninin vətəndaşları idilər.



Beləliklə, Həmayıl nənənin el sevgisi, inadkarlığı ilə geriyə dönüş Gürcüstana bir Nargilə qaytardı – Borçalı saz tarixinə möhür vurmağa, yenidən yaşatmağa, davamçılar yetişdirməyə!

Nağılım sona çatmadı, amma almaların ətri, sədası hər bir saz, söz həvəskarını sevindirdi, əks-sədası nəinki Gürcüstanda, hətta Avropada “mən türk əsilli, Azərbaycan sənətli Gürcüstan vətəndaşıyam” dedi.

Var olun, Nargilə xanım, sazınızla birgə yaşayın, yaradın, yaşadın!

**Esmira ƏLƏKBƏRLİ**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# FƏRQLİ DÜŞÜNCƏ TƏRZLƏRİ



Həyat kompüterdə oynadığımız mərhələli oyun kimidir. Mərhələnin birindən digərinə keçməkdə çətinlik çəkirik. Bu çətinliklər içərisində nə qədər gözəlliyin olduğunu belə görmürük. Özümüzü qruplara bölürük. Məsələn, müsəlman-xristian, ağdərili-qaradərili, kişi-qadın, gözəl-çirkin, varlı-kasıb və s. Bunlardan günümüzün ən aktualı, demək olar ki, hələ nəyin necə olduğunu bilməyən uşağın belə problemi varlı olmaqdır.

Bəzi varlılar ata-babadan qalan mal-mülklə zəngindirlər. Bəziləri çalışıb öz əməkləri ilə bir yerə gələnlərdirlər. Bəziləri isə öz qədərlərini özləri yazanlardır. Öz savadı ilə, təhsili ilə bir yerdə özlərinə mövqe tapanlardır.

Hər il qəbul nəticələri açıqlandıqda ən yüksək balı kasıb ailələrin uşaqlarının topladığının şahidi oluruq. Kimin necə varlı olduğunu heç kəs sorğulaya bilməz, ancaq "könül zənginliyi" deyilən şey var, bax bu, hər varlının qəlbində yoxdur. Bunları gördükcə, şahid olduqca bir daha "toxun acdan nə xəbəri" atalar sözü yadıma düşür. Çox yaxşı müşahidə edilmiş, yerində deyilmiş ifadədir, atalar sözüdür. Əsrlər əvvəl deyilib və hələ də dəyişən heç nə yoxdur.

Doğrudan da varlının kasıbdan xəbəri yoxdur. Onu maraqlandırmır qışın soyuğunda çöldə yatan adamlar, evsiz-eşiksiz qalan küçədəki ailələr, bir ayağı yalın, bir qarnı ac, bir qarnı tox dilənən uşaqlar və digərləri. Eyni həyatı yaşamırıq deyə bir-birimizi başa düşməyimiz çox çətindir deyəsən. Ona maraqlı deyil metrodakı basabas, ona maraqlı deyil maaş, pensiyanın çatmaması, ona maraqlı deyil yolların palçıqlı olması, ona başqalarının problemi maraqlı deyil. Heç olmasa ömründə bir dəfə yoxsulluq yaşamayan, doğulduğu gündən ağzında gümüş qaşıqla böyüyən birinə niyə maraqlı olsun ki, ucqar kənddə məktəbdə istilik sistemi yoxdur, uşaqlar evdən apardıqları odunun tüstüsündə lövhəni görməyə çalışırlar...

Düşünüb bir-iki saç telini niyə ağartsın ki? Yaşayır da özü üçün.

Varlı və kasıb insanlar arasındakı fərq, sözsüz ki, təkcə pulun çoxluğundan və azlığından ibarət deyil. Bu iki təbəqə arasında əsas fərqlərdən biri onların dünyaya fərqli baxışları və fərqli düşüncə tərzləridir. Kasıb insanlar pul xərcləməkdə risk etmirlər, zənginlər isə pul xərcləməyin nə vaxt riskli olduğunu dəqiq bilirlər. Buna misal olaraq hər gün mağazada növbə gözləyərkən qarşılaşdığım bir hadisəni danışmaq istəyirəm. Üst-başından doğrudan da kasıb olduğu görünən bir ata qızı istəyir deyə ona son qəpiyini xərcləyir. Eyni növbədə duran başqa bir valideyn pul qabında saysız bank kartları olan biridir. Uşağına sadəcə istədiyi bir şeyi götürməyini tapşırır, artıq bir şey götürsə yerinə qoymağı üçün şərtlik eliyir və üstəlik ödəniş edərkən problem yaradır ki, "qəbzi nə üçün vermirsiniz", "nəyə görə selofana pul ödəyirik" və s.

Əksəriyyətimiz kasıb və varlı sözünü eşidərkən çox asan şəkildə onlar arasındakı gözlə görünən fərqlərini beynimizdə formalaşdıra bilirik. Onun duruşunu, geyimini, görünüşünü, danışığını, hətta necə davrana biləcəyini belə kasıb və varlı sözündən anlayırıq. Bir çoxlarımız, məncə, kasıbdır dedikdə çirkli geyimi olan, özündən razı olmayan, qarşısındakı insanlara qarşı özünü müdafiə etməyi bacarmayan, bir sözlə, zəif bir xarakter düşünürük. Varlı dedikdə isə çoxlarımızın ağlına yaxşı geyimli, özündən razı, qarşısındakı insanlara qarşı özünü müdafiə etməyi bacara bilən biri gəlir, yəni güclü biri. Ancaq insanları yalnız iki sözə görə – varlı və kasıb sözlərinə görə təsəvvür etməyimiz nə qədər doğrudur ki?

Kiməsə görə kasıb yaxşı ola bilməzmi, yaxud da varlı pis ola bilməzmi? Məncə, artıq bu düşüncə tərzini dəyişməliyik. İnsanları xarici görünüşünə görə deyil, daxilinə görə sevsək, tanısaq, rəy bildirsək daha yaxşı olar...

"Kasıb yaxşı, varlı pisdir" – çoxunuza tanışdır bu sözlər. Bu kasıb düşüncəli ailənin kasıb sözləridir, uşaqlıqda imkanlı hər kəsin pis olduğunu beyinə yeridən ailədir və bunun səbəbi kasıb olub, varlı ola bilməmək və hər varlının haram yolla qazandığını bizə inandırmaq çabasıdır. Kasıb varlı olmağı sadəcə arzulayır, lakin düzgün çabalamır və varlıya kin bəsləyir, qazancının haram olduğunu düşünür, lakin dərk etmir ki, varlı olmaq beyin işidir, şans işi deyil, beyin güclü olduqda qazanmağı da, xərcləməyi də yaxşı bilir. Adi bir misal: gözəl maşın gördə "bir gün mənim də olacaq" deyən də var, qarğış töküb pis niyyət edən də var. Pis niyyət edən elə o kasıb beyindi, özünə onu arzulamır, sadəcə özünün yoxdur, olanlara da pis baxış göstərir.

"Kasıb olaraq doğulmusunuzsa bu sizin günahınız deyil, ancaq kasıb olaraq ölürsünüzsə bu sizin günahınızdır" (Bill Qeyts).

**Aytən FƏTULLAYEVA**

*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*

# BİZ AĞILSIZ UŞAQLARIQ



Biz ağılsız uşaqlarıq. Biz insanlar həyatda gerçəkdə necə varıqsa elə də olmalıyıq, amma çoxumuz, təəssüf ki, belə deyil, bəzilərimiz həqiqətləri eşitməkdən, bəzilərimiz isə yaşamaqdan qorxuruq...

Həqiqəti bilmək istəyirsənmi? – Sənin necə geyinməyin, necə görünməyin heç kimin vecinə deyil. İnsanlar başqalarını öz etibarsızlıqlarına görə mühakimə edirlər. Bizdə heç bir çatışmazlıq yoxdur, əksinə, bir çox xüsusiyyətlərimiz var – pisi ilə, yaxşısı ilə... Pis və yaxşı dedikdə isə biri üçün pis olan şeylər, digəri üçün çox yaxşıdır, bunun üçün də hər halımızla çox gözəl görünürük.

Hər şeyə pozitiv yanaşmaq həmişə insanlara zərər verir. İnsanlar kədərləndikləri başa düşürlər, lakin kədər hissini boğaraq sevinci özlərindən zorla sıxmağa çalışırlar. Problemlər üst-üstə yığılır. Dağıntı baş verir...

Həqiqəti eşitmək istəyirsən? – Kədərlənmək yaxşıdır. Mənfi emosiyalar normaldır. Bu hisslərə görə özünüzü qınamağa ehtiyac yoxdur...

Həqiqəti eşitmək istəyirsən? – Hər şeyin bir mənası var. Mən "sevgi yoxdur" deyənlərə inanmıram, hər şeyin mənasız olduğunu söyləyənlərə inanmıram. Bəli, bəlkə də kimsə bu insanlara xəsarət yetirib. Və bu insanlar deyirlər: "Məni sevgi maraqlandırmır"...

Həqiqəti eşitmək istəyirsən? – Hər kəsin vaxtı var. Bizim kifayət qədər vaxtımız var. "Vaxtım yoxdur" ifadəsinə inanmıram. Heç bir istəyiniz yoxdur. Yazmaq istəyirsinizsə yazın, xəyalınızı gerçəkləşdirmək istəyirsinizsə gerçəkləşdirin; əgər istəmirsinizsə, o zaman həmişə bəhanələr tapacaqsınız.

Bunu eşitmək istəyirsən? – Heç kimə nəyisə sübut etməyə ehtiyac yoxdur. Bunu özünüzə sübut edin. Özünüzə nədən ibarət olduğunuzu göstərin...

Həqiqəti istəyirsən? – Kiminsə sizə inanması vacib deyil. Eşidirsən? Bu məcburi deyil. Əsas odur ki, özünüzə inanırsınız. Ən vacib də elə budur.

Bu həqiqəti eşitmək istəyirsiniz? – Bir yerdə oxumuşdum: "Sən əvvəllər etdiyin deyil, indi etdiyin şeysən". Keçmişə görə özünüzü günahlandırmağı dayandırın. Artıq özünüzü bağışlamaq vaxtıdır.

Kədərlənmək normaldır.

Sən yaraşıqlısan.

Hər şeyin bir mənası var.

Sevgi mövcuddur.

Vaxtınız var.

Heç kimə nəyisə sübut etməyə ehtiyac yoxdur. Bax bu, əsil həqiqətdir və biz yaşamaqdan çox qorxuruq. İmtahandan kəsilməkdən, ali məktəbə daxil olmamaqdan, valideynlərimizin fəxrinə çevrilə bilməməkdən qorxuruq. Biz ürəkdən istədiyimizi etməklə kiminsə ümidlərini doğrultmamamaqdan qorxuruq. Küçələrdə musiqiçilərin yanında rəqs etməkdən, yalançı səslə doğma mahnılarımıza qoşulmaqdan qorxuruq, qəribə görünməkdən qorxuruq. Bizim üçün adi olmayan fərqli görünüşə sahib biri ilə tanış olmaqdan qorxuruq, maraqlı bir insanı gəzməyə dəvət etməkdən qorxuruq. Bəyəndiyimiz qeyri-adi paltarları əvvəlcə almağa, sonra geyinməyə, sonra isə kirlətməyə qorxuruq. Özümüzə əlavə bir kokteyl, bir dilim tort, istirahət üçün icazə götürməyə qorxuruq. Biz üzümüzü cəlbedici olmayan şəkildə rəngləməkdən və ya heç boyamamaqdan qorxuruq. Bəzi qınamalara görə üstünlüklərimiz haqqında danışmaqdan qorxuruq. Fotoşəkillərdə pis görünməkdən qorxuruq. Yağışda islanmaqdan qorxuruq. Səhv etməkdən qorxuruq. Qucaqlamaqdan, təşəkkür etməkdən qorxuruq. Yüksək səslə gülməkdən qorxuruq. Zəifliyimizi göstərməkdən qorxuruq. Sevməkdən, sevilməkdən qorxuruq. Bizi belə sevəcək bir insanla qarşılaşmayacağımızdan qorxuruq. Bitmək bilməyən qorxular və hər zaman yenə də hər şeydən qorxuruq...

Ağılsız uşaqlar kimi görünməkdən qorxuruq. Amma məsələ də burasındadır ki, biz ağılsız uşaqlarıq, çünki biz yaşamaqdan çox qorxuruq və normaya uyğunlaşmağa çalışırıq.

Bilirsinizmi, sadə və hamıya məlum olan bir həqiqət var: siz və mən heç vaxt indiki vaxtdan cavan olmayacağıq. Gənclik isə bizə bir dəfə verilir və keçib gedir. Yaşayın artıq, qorxmayın və sonda nəhayət "yaşamaqdan qorxmuram" deyin.

**Elvina HACIYEVA**

*Nizami Gəncəvi adına Beynəlxalq Elmlər Akademiyasının hazırlıq kursunun tələbəsi*

# GÜLÜŞÜN ESTETİKASI

**Elizbar CAVELİDZE**



Gülüş və kədər insanı genetik olaraq özü ilə müşaiyət edir. Başqa cür desək, o insanın bioloji xüsusiyyətidir. Vaxtilə Çarlz Darvin təsdiq edirdi ki, "Gülüş ilk öncə yalnız sevinc və xoşbəxtliyin ifadəsi idi. Biz bunu sanki daim gülən, oynayan uşaqlarda aydınca hiss edirik" (Дарвин Ч., О выражении ощущения у человека и животных, СПб, 1872, стр. 163).

Düşündürücü haldır ki, sevinc hissi, istərsə də kədər hissi doğulduğu andaca insanda genetik miras olaraq əhatə olunur. Bu fiziki və qeyri-mənəvi hiss heyvanları da xarakterizə edir. Məsələn, it əgər nəvaziş göstərirsənsə xoşhallandığına görə zingildəyir, əgər üstünə düşürsənsə, hirsləndirirsənsə, bədxahlıqla sənə hürüyəcək. Pişik də belədir, onu sığallayanda mırıldayır, əgər ona qarşı sırtıqcasına hərəkət edirsənsə, üst-başını cırmaqlayacaq və sair. Nümunələri çox gətirmək olar. Bu isə, bir baxışla, sadə bir şeydən xəbər verir: İnsan öz bədəni etibarı ilə heyvandır və onu heyvandan təkcə ucalan şüurla zənginləşən ruhu fərqləndirir.

Heyranedicidir, lakin faktdır ki, hərdənbir heyvanın instinki insanın hissi ilə bərabərləşir. Üstəlik, daha da mükəmməldir də. Böyük yunan filosofu Aristotelin bizə söylədiyi bir daha diqqətə layiq və heyranedici fakt bundan aydınca xəbər verir: Deyilənə görə, İskit padşahının nəcib madyanı olub ki, bu da bir növ yaxşı ulaqlar dünyaya gətirib. Padşah ən yaxşı cinsin nəslinə sahib olmaq istədiyi ilə ulaqların ən yaxşısını çarpazlaşdırmaq üçün dişi madyanın yanına gətirdi, lakin ulaq ona yaxınlıq vermədi. Halbuki madyanın üstünü keçə ilə örtəndə, ulaq dərhal onun belinə sıçradı və olası şey oldu. Lakin bundan sonra madyanın başından örtüyü çıxaranda, ulaq onu görüb qaçaraq yarğandan özünü atdı (IX kitab, f. 47) (Bax: Латышев В.В., Сведения древних писателей о Скифии и Кавказе, т. I, вып. 2, СПб, 1806, стр. 378). Üzdəniraq azad cəmiyyətdə baş verən faktları xatırlayanda bu fakt daha çox üzücüdür: ana öz gənc oğluna ərə gedir; ata zorakılıq edir, öz qızı ilə cinsi əlaqəyə girir və uşaqlar doğuzdurur, lakin bir çox il keçəndən sonra zorakılığa məruz qalmış qızı azad olmağa nail olur və yardım üçün qardaşına müraciət edir, qardaşı da onu zorlayır. Həyəcan doğurucu və dəhşətli hal odur ki, insanlar cəmiyyəti bunu normal hal kimi hesab edir, bu da şəksiz bir faktdan xəbər verir: insan heyvandan aşağı səviyyədədir!

İndi bu normal insan üçün heyranedici faktın başını buraxaq və yenə uşaqların aləminə qayıdaq. Uşaq aləmə gəlişini qışqırıqla-ağlamaqla qarşılayır. Sonra ana döşündən yapışaraq həzz almaq hissini yaşayır. O, tədricən dolğunlaşır və bir insan olaraq formalaşır. Lakin o, hələ uşaq yaşlarında, oynayanda, sərbəst hərəkət edəndə və güləndə, əgər istədiyinə çata bilməyəndə, ağlayır. Müəyyən yaş həddinə çatanda, böyüklər güləndə, o da təhriklə gülür, halbuki daha sonralar şüur cəhətdən yetkinləşərək ətraf mühiti dərk edəndə artıq gülüş obyektini anlayır və bu hadisənin və əşyanın onu niyə güldürdüyünü ayırd etməyə cəhd göstərir.

Ümumiyyətlə, yeniyetmənin öz "mən"ini ətraf aləmdən ayrılmış kimi hesab edəndə onun şüurunun bu pilləsinə yüksəlməsinin konkret olaraq nə zaman baş verdiyini müəyyən etmək çətinləşir, lakin bu dəfə verilən kontekstdə bunun bir əhəmiyyəti yoxdur.

Uşağın inkişafının bu ümumi olaraq məlum olan sxemini ona görə nümunə gətirdim ki, o, bəşəriyyətin inkişafını: uşaqlıq yaşlarından həddi-büluğa çatana kimi olan dövrü, ümumiyyətlə, bizə xatırladır.

Qısası, insanlar nəslinin əcdadları yenə bioloji səviyyədə, demək mümkündür ki, instinkt olaraq gülürdülər və ağlayırdılar. Lakin sonralar, yenə də ən qədim zamanlarda, insan hələ öz "mən"ini, istərsə də "biz"in əhəmiyyətini dərk edəndə, başqa cür, o dərk edəndə ki, heyvanlardan fərqlənən varlıqdır, bu da təkcə bu böyüklükdə fiziki varlığı təmin etmək və qorumaq iqtidarında deyil, həm də mənəvi səadəti dərk etmək və duymaq istedadına və qabiliyyətinə malikdir. Mənim fikrimcə, budur, bu zaman o, onun o tərəfində qüsurlu və bədxah olaraq mövcud olan qüvvə ilə qarşı-qarşıya gəldi. Onu məğlub etmək üçün daş balta ilə yanaşı gülüşün gücünü də özününkü hesab etdi və ona inandı.

Düşünüldüyünə görə, bu ictimaiyyətin inkişafının ilkin primitiv pilləsində baş verməli idi. A.Lunaçarski bu barədə yazır: "Etnoqrafiya bizə öyrədir ki, inkişafın və mədəniyyətin hələ yenə ən primitiv pilləsində mütəşəkkil gülüş mövcud idi ki, bu da onda onunla ifadə olunurdu ki, cins cins ilə qarşı-qarşıya gəlirdi, bir tayfa o biri tayfa ilə: iki tayfa bir-birlərini gülüş arenasına dəvət edirdi" ("Mnatobi", 1958-ci il, №5, səh.11).

Əgər insanların həyatını ümumi spektrdə təsəvvür etsək, onda onun sadəcə olaraq iki əks anlayışla – narahatlıq və sevinclə mövcud olduğu fikrinə gələ bilərik. Yəni tezis və antitezis arasındakı əlaqə insan həyatının adi gözlə dərk edilən mahiyyətini yaradır. Gəlin müdrik Sokratın bizə nə dediyini xatırlayaq: "Nə qəribə şeydir, insan, bizim ona zidd olduğunu düşündüyümüz şey – kədər. İnsanda hər ikisi bir-birinə sığmaz, amma birinə can atıb qəbul edərsə, o birini də qəbul etməyə məcbur olur, sanki birinin başı doğrudan da digərinə bağlıdır. Və mən hesab edirəm ki, Ezop bu haqda düşünsəydi, belə bir şeir yaradardı: Tanrı bu iki ziddiyyət hissini sülhlə bağlamaq istəyirdi, ancaq onları uclarından bağlaya bildi. Buna görə də birindən sonra labüd olaraq o birisi gəlir. "Göründüyü kimi, içimdə də bu indi baş verir", – deyə o davam etdi, – "Bayaq ayaqlarımı qandallar gəmirirdi və məni narahat edirdi, indi isə sevinc kədəri əvəz etdi" (Platon, Fedon, Qədim yunan dilindən tərcümə və qeydləri əlavə etdi Baçana Breqvadze, Tbilisi, "Nakaduli", 1966, səh.8).

Odur ki, insan təbiəti-xarakteri əhval-ruhiyyəyə uyğun olaraq dəyişkəndir ki, bunu da əsasən obyektiv olaraq mövcud olan amillər əmələ gətirir, o ya gülür, ya ağlayır. Əgər məntiqin zəncirinin arxasına düşsək və ümumiləşdirsək, o nəticəyə gələrik ki, həyat-yaşayışın struktu-ru-tezis-antitezisin bir-birini əvəz etməsi ilə yaradılmışdır. Elə bunu Platonsayağı həyat tərzinin modelinin mifoloji planda əmələ gəlməsi də təsdiqləyir ki, bu da həyatı bizə təsvir edir, daim hərəkət edən top formalı dəyirmi disk kimi, iki göz – biri gülən və o biri ağlayan, elə ki, gözəlləşdirir və hərəkət edən zaman gah biri yüksəlir, özünü göstərir, gah da o birisi.

Elə burada unutmamalıyıq ki, "Fedon" əsərində ölümün neqativ duyğusuna xitam verməyə və onun müsbət çalarlarını üzərə çıxartmağa cəhd göstərəndə, fəlsəfi düşüncənin təkamül yüksəlişi ideya, ilahi aləmə doğru yönəldiyindən, bu təəccüblü deyildir. Buna görə də elə həmin "Fedon" əsərində Platon bizə nəql edir: "Kişilər üçün... bütün həyatı boyu fəlsəfəyə təmənnasız xidmət edən kəslər ölüm və ölümə hazırlıqdan başqa heç nədir" (Elə orada, səh. 15).

Platon gülüş və kədərin (ağlamağın), insanların bu bioloji özünü biruzə verməsinin köklərini ümumiləşdirilmiş səviyyədə həyat və ölüm kateqoriyaları ilə: tezis-antitezis struktur qarşılıqlı münasibət ilə əlaqələndirir. Nəhayət, onun məqsədi, ən başlıcası, cismani həzzə əsaslanan həyatın ikonasını ucuzlaşdırmaq, onun vaxtında da bədəndən ayrılan ruhun dolğun səfa xoşbəxtliyə çatan ölüm anlayışını ucaltmaqdır. Bir sözlə, həyat gülüş və ağlamağın qarışığıdır və bu iki modus, gülüş və ağlamaq daim bir-birini əvəz edir.

*(davamı növbəti sayda)*

Gürcü dilindən tərcümə etdi:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com "ახალი გზა" საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 YANVAR
2024-CÜ İL
№ 02 (197)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTAN PREZİDENTLƏRİNİN ƏMLAKI NƏ QƏDƏRDİR?



Gürcüstan siyasətçilərinin əmlakı ictimaiyyətdə həmişə böyük marağa səbəb olub. Həmin siyasətçi prezidentirsə maraq daha da artır.

Ölkənin birinci şəxsləri hansı əmlaka sahibdirlər və hansı prezident öz əməkhaqqını xeyriyyəçiliyə xərcləyir, "Biznespressnews" bu suallara maksimum dərəcədə cavab verməyə cəhd edib (Məqalədə prezidentlərin vəzifə müddəti başa çatan il doldurduqları əmlak bəyannamələrindən istifadə olunub):

**Eduard Şevardnadze** – Gürcüstanın 2-ci prezidenti, vəzifə müddəti 1995-ci il 6 may – 2003-cü il 23 noyabr.

2003-cü ildə doldurulmuş bəyannaməyə görə, Gürcüstan prezidentinin yaşadığı ev dövlətə məxsusdur. "Dövlətə məxsus olan evdə yaşayıram", – deyə sənəddə qeyd edilib.

Həmin dövrün məlumatına əsasən, "Gürcüstan Bankı"nda Eduard Şevardnadzenin adına bağlanma tarixi 2 dekabr 2002-ci il olan 20273 ABŞ dolları məbləğində əmanət qeydə alınıb.

E.Şevardnadzenin bəyannaməsində qeyd olunub ki, 888 dollar dəyərində məqsədli xərclər dövlət və ya dəvət olunmuş şəxs tərəfindən maliyyələşdirilir.

**Mixeil Saakaşvili** – Gürcüstanın 3-cü prezidentinin vəzifə müddəti (ikinci müddətlə) – 2008-ci il 20 yanvar – 2013-cü il 17 noyabr.

Mixeil Saakaşvilinin adına Ğvarelidə torpaq sahələri qeydə alınıb. Onların ümumi sahəsi 19103 kv.m-dir. Eləcə də Ğvareli şəhərində 97 kv.m sahəsi olan yaşayış evi, Kazbeqidə 500 kv.m torpaq sahəsi var.

Ümumilikdə Saakaşvili torpaq sahələrinə 104 920 lari ödəyib.

M.Saakaşvilinin bəyannaməsi 2013-cü ildə doldurulub.

**Giorgi Marqvelaşvili** – Gürcüstanın 4-cü prezidentinin vəzifə müddəti – 2013-cü il 17 noyabr – 2018-ci il 16 dekabr.

Bəyannaməyə görə, Marqvelaşvilinin adına Duşetidə, Saakadze küçəsində 4 462 kv.m torpaq sahəsi qeydə alınıb. Prezident 2004-cü ildə həmin torpaq sahəsi üçün 11000 dollar ödəyib.

2004-cü ildə Duşetidə, Saakadze küçəsində 200 kv.m ərazisi olan yaşayış evini 2500 dollara alıb.

2009-cu ildə 3000 dollara 120 kv.m sahəsi olan mənzil alıb. Mənzil Tbilisidə, Paolo İaşvili küçəsində yerləşir.

2016-cı ildə isə Duşetidə, Saakadze küçəsində 40 kv.m sahəsi olan evi 10000 dollara alıb.

G.Marqvelaşvilinin bəyannaməsi 2019-cu ildə doldurulub.

**Salome Zurabişvili** – Gürcüstanın 5-ci prezidenti hazırkı vəzifəni 2018-ci ilin 16 dekabrından tutur.

Salome Zurabişvilinin əmlak bəyannaməsinə görə, o, 1989-cu ildə 150000 avroya Parisdə 60 kv.m sahəsi olan mənzil alıb.

2006-cı ildə Tbilisidə, Keptin küçəsində 235 kv.m torpaq sahəsini 160000 dollara alıb.

S.Zurabişvilinin adına "Gürcüstan Bankı"nda 30000 dollar dəyərində əmanət qeydə alınır.

Gürcüstanın hazırkı prezidentinin yığım pensiyasının miqdarı 34 093 avro təşkil edir.

Qeyd edək ki, S.Zurabişvili əməkhaqqını tam olaraq xeyriyyə fonduna köçürür ki, bunun da ümumi dəyəri 40000 laridir. Müxtəlif növ xeyriyyə işlərinə Salome Zurabişvili 17130 lari bağışlayıb.

Salome Zurabişvilinin bəyannaməsi 2023-cü ilin 26 yanvarında doldurulub.

Gürcüstanın 1-ci prezidenti **Zviad Qamsaxurdiya**ya gəlincə isə, onun haqqında elə də çox məlumat tapılmır. Vəsiyyətnaməsi var ki, orada özünün daşınmaz əmlakını – Tbilisidə, Qali küçəsində yerləşən evini və Qaqra rayonunun Lidzava kəndində yerləşən bağ evini iki övladı – Tsotne və Giorgi Qamsaxurdiyalara verib.

*Mənbə: bpn.ge*

## GÜRCÜSTANDA NARKOMANLARIN SAYI ÇOXALIB



Gürcüstan Daxili İşlər Nazirliyinin (DİN) Ekspert-Kriminal Baş İdarəsinin Narkotiklərlə Mübarizə Xidməti 2023-cü ildə narkomaniyanın yayılması səviyyəsini öyrənmək məqsədilə araşdırma aparıb. Ölkə üzrə 5492 nəfər müayinəyə cəlb olunub və onlar test analizi veriblər. Müayinədən keçənlərin 4023-nün narkoman olduğu müəyyən edilib.

Gürcüstan DİN-in saytında yerləşdirilmiş məlumata görə, müayinə edilənlərdən 5338 nəfəri kişilərdir, onlardan 3970 nəfəri müsbət nəticə göstərib,154 qadından isə 53-də narkotik aludəçiliyi təsdiqlənib.

Ötən il narkomaniyaya görə yoxlanılan şəxslərdən 17-si yetkinlik yaşına çatmayanlar olub, onlardan 10-nun narkoman olduğu üzə çıxıb.

Statistikaya görə, narkomaniya testi verənlərin 3278 nəfəri 25-44 yaş arasında olub və 2393 kişi və 34 qadın pozitiv nəticə göstərib. Altmış yaşdan yuxarı 155 vətəndaşdan isə 72 nəfərinin narkotik aludəçisi olduğu aşkarlanıb.

## ÖTƏN İL GÜRCÜSTANIN ÜMUMİ İDXALININ 4,2 FAİZİ AZƏRBAYCAN MƏHSULLARININ PAYINA DÜŞÜB



Ötən il Gürcüstan ilə Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi illik ifadədə 7 faiz artaraq 1 milyard 515 milyon 98 min ABŞ dolları təşkil edib. Bu barədə Gürcüstan Milli Statistika İdarəsinin hesabatında qeyd olunub.

Bildirilir ki, ötən il Gürcüstan Azərbaycandan 653 milyon 911 min dollar dəyərində mal və məhsullar idxal edib. Bu göstərici 2022-ci illə müqayisədə 2,1 faiz çoxdur və Gürcüstanın ümumi idxalının 4,2 faizini təşkil edib.

Hesabat dövründə Gürcüstandan Azərbaycana ixrac olunan malların həcmi isə illik müqayisədə 28,2 faiz artaraq 862 milyon 70 min dollar olub. Bununla da ötən il Gürcüstan ilə Azərbaycan arasındakı xarici ticarət dövriyyəsində 208 milyon 158 min dollar həcmində müsbət saldo yaranıb.

Qeyd edək ki, 2022-ci ildə Gürcüstanın Azərbaycanla xarici ticarətdə 32 milyon 306 min dollarlıq mənfi saldo olub.

## GÜRCÜSTANIN HAVA LİMANLARINDAN 6 MİLYON SƏRNİŞİN İSTİFADƏ EDİB




Gürcüstanın hava limanları 2023-cü ildə 6 milyona yaxın sərnişinə xidmət göstərib. Bu barədə Gürcüstanın Mülki Aviasiya Agentliyinin məlumatında bildirilib.

Qeyd olunub ki, bu göstərici 2022-ci illə müqayisədə 35 %, pandemiyadan əvvəlki dövrlə müqayisədə 15 % çoxdur.

Ötən il Tbilisi Beynəlxalq Hava Limanı 3,694 milyon, Kutaisi Beynəlxalq Hava Limanı 1,671 milyon, Batumi Beynəlxalq Hava limanı isə 621,5 min sərnişinə xidmət edib.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.